# KASABLANKA



*Salatın ƏHMƏDLİ,*
*dosent*

Kasablanka Mərakeşin ən iri, müasir və Avropa tipli şəhəridir. Binalarına görə elə zənn etmək olar ki, Avropanın hər hansı bir cənub şəhərindəsən. Şəhər Atlantik okeanı boyunca yerləşib. Kasablanka "Dar əl-Beyda" sözündən yaranıb, ərəbcədən tərcümədə Dar-ağ, əl-Beyda-ev deməkdir. Şəhər Afrika qitəsinin ən böyük şəhərlərindən və portlarından biridir. Deyilənə görə, şəhərin tarixi VII əsrə gedir. Köhnə şəhərin ətrafında yeni binalar tikərək müasir tipli şəhər yaradıblar. 1468-ci ildə əvvəlki adı Ənfa olan şəhəri portuqallar zəbt etmiş və dağıtmışlar. XVIII əsrin II yarısında şəhər Mərakeş Sultanı Sidi Məhəmməd bin Abdullah dövründə yenidən salınmış və iki adla adlandırılmıdır: ərəbcə Dar-əl Beyda və ispanca Kasablanka.

Kasablanka həm də Mərakeşin ən böyük iqtisadi mərkəzi və sənaye şəhəridir. Hal-hazırda şəhərdə 4 milyondan çox əhali yaşayır. Şəhərin Atlantik okeanı sahilində yerləşməsi onun inkişafına və böyüməsinə xüsusi təsir göstərir. Kasablanka portu ölkənin birinci, Afrikanın dördüncü portu hesab edilir. Şəhərin sahildə yerləşməsi, əlverişli hava şəraiti və ətraf mühitin, təbiətin gözəlliyi ora turist axınına şərait yaradır. Avropa standartlarına cavab verən çimərliyi, otelləri, restoranları və xidmətləri turistlərin həvəslə gəlməsinin əsas səbəbidir. Hər il minlərlə turist oranı ziyarətə gəlir. Aeroport şəhərin 30 kilometrliyindədir. Aeroportun 100 beynəlxalq reysi ildə 5 milyon adam daşıyır. Kasablanka şəhərtikmədə ölkənin o biri şəhərlərindən fərqlənir - şəhər çox müasir və arxitektura cəhətdən rəngarəngdir. Onlar "Mədinə"ni - qədim şəhəri də göz bəbəyi kimi qoruyurlar.

Kasablanka müasir portu, özünəməxsus incəsənəti, mədəniyyəti olan, meqapolis statusunu almış, güclü ticarət mərkəzi olan şəhərdir. Köhnə şəhər - Mədinə məhəlləsi II Həsən məscidinin yaxınlığında yerləşir. Köhnə şəhər (ərəblər "Mədinə" deyirlər) qədim ərəb adət-ənənələrini, memerlığını,atmosferini özündə qoruyub saxlamışdı. İki adamın gücələ keçə biləcəyi dar yollar uzunu bütün günü açıq olan, gələn turistləri ərəblərin əl işlərindən ibarət olan malları almağa dəvət edən satıcıların səsələri şərq ölkələrinə məxsus olduqlarını bir daha təsdiq edir. Köhnə şəhərə toxunmadan ətrafda yeni şəhərin bünövrəsi qoyulmuş və şəhər salınmışdır. Yerli camaat çox mehriban, xeyirxah və onlara verilən "çay puluna" qane olan insanlardır.

Bəzi versiyalara istinadən deyirlər ki, şəhəri finikiyalılar inşa edib və onu "Ənfa" adlandırıblar. VII əsrdə Ənfa bərbərlərin (xalq, tayfa) Berquata dövlətinin paytaxtı olub. Portuqalların şəhərə tez-tez hücumu olurmuş. XV əsrdə oranı zəbt edən portuqallar şəhəri "Kaza-Branka" adlandırıblar. Portuqallar buradan yalnız XVIII əsrdə çıxıblar. Bundan sonra Kasablankanın çiçəklənmə dövrü başlayır. Şəhərdə memarlıq cəhətdən zəngin olan binalar, qala divarları, məscidlər, mədrəsələr tikilməyə başladı. Şəhərin sultanı Məhəmməd Bin Abdullah şəhərə Dar-əl-Beyda (Ağ şəhər) adını verdi. İspanlar buraya investisiya qoyaraq xeyli sayda ticarət mərkəzləri açdılar. Öz kompaniyalarını, ofislərini yerləşdirdilər və şəhəri Kasablanka adlandırdılar. Şəhər dünyada bu adla tanındı. Avropanın şəhərə marağı artdı. Avropanın Mərakeş kənd təsərrüfatı mallarına tələbatı artdığından 1862-ci ildə Marsel-Marokko gəmi reysi açıldı. 1920-ci ildən Kasablanka portu Mərakeşin əsas portu oldu. Sürətlə böyüməsi nəticəsində şəhər 1981-ci ildə 6 inzibati əraziyə bölündü. Şəhər ildən-ilə böyüyür və gözəlləşir. 1923-cü ildən Yeni Mədinə - yeni şəhər salınmağa başlandı. İki əkiz bina (1998) şəhərin ən hündür (115 metr) binalarıdır. Şəhərin ən möhtəşəm tikilisi isə II Həsən məscididir. Məscid Atlantik okeanının sahilə yaxın sularının üstündə inşa edilib. 1993-cü ildə xalqın istifadəsinə verilən II Həsən məscidi Kasablankanın əsas rəmzinə çevrildi. Atlantik okeanı sahilində inşa edilmiş Əl-Hank fənəri də (mayakı) Kasablankanın rəmzlərindən biridir. Mayak 1916-cı ildə tikilib.

1961-ci ildə Kral V Məhəmmədin ölümündən sonra onun oğlu II Həsən hakimiyyətə keçir. O, atasının Kasablankada məqbərəsini tikdirir. Sonra fikrini dəyişərək onu Rabata köçürür. Kasablanka camaatının qarşısında özünü borclu hesab edən kral şəhərdə böyük bir məscid tikdirməyi qərara alır. Məscidi okeanın sahilində inşa etdirir. Kənardan baxanda məscid sanki okeanın dibindən qalxmış kimi görünür. Məscidin qülləsi hündür olduğundan şəhərin hər yerindən görünür. Təəccüblüsü də odur ki, məscidin təməlinin çox hissəsi suyun altından ucaldılıb. II Həsən məscidi dünyada tikilmiş məscidlərin içində ucalığına və möhtəşəmliyinə görə ikinci yerdədədir. Birinci yerdə isə Mədinədəki müqəddəs Məscid-əl-Həramidir. II Həsən məscidi həm də islam və ərəb dünyasında islam mədəniyyətinin simvoludur. Məscidin layihəsi fransız memarı Mişel Pinsoya aiddir. Məscidin təməli 1986-cı ildə qoyulub. Memarı isə mərakeşli ərəb olub. Məscidin 30 avqust 1993-cü ildə təntənəli açılışı olub. Məscid tək mərakeşlilərin, afrikalı, Aralıq dənizi sahili müsəlmanların, avropalıların, ərəblərin yox, bütün dünya müsəlmanlarının ən çox ziyarət etdikləri möhtəşəm dini bir mərkəzdir. Dünyaca məşhur olan məscid 9 hektar ərazidə yerləşib. Məscidin tikintisinə 400 milyon avro xərclənib. Məscidin tikintisinə kral II Həsən birbaşa nəzarət edib və yeni-yeni ideyalar verib. Minarənin yüksəkliyi 200 metrdir. Məsciddə kitabxana, mədrəsə, seminarlar və görüşlər keçirmək üçün böyük salon var. Məscidin zirzəmisində 4 zolaqlı avtomobil yolu və dayanacağı var. Tikilinin həyətində gözoxşayan, ətrafa sərin su səpən, zümrüd rəngli fəvvarəli hovuz var. İstidən təntiyən ziyarətçilərin üstünə su çiləndikcə insana bir sərinlik gəlir. Belə götürdükdə alçaq fəvvarəli hovuzlar məscidin içində də tikilib. Uzun səhəni tutan divarboyu su kranları və suyun axması üçün balaca kanallar zəvvarların və turistlərin əl-üz yuması, sərinləməsi və abdəst alması üçün tikilmişdir. Məscidin içərisi çox geniş və sərindir. Məscidin tavanı elə quraşdırılıb ki, istədikləri vaxt düyməni sıxmaqla tavan iki yerə ayrılır və içərinin havası dəyişdirilir. Tavanın dikinə tikilmiş hissəsi şüşədəndir. Məscidin fasadı islam dininə xas olan yaşıl və ağ rəngli mozaikalarla bəzədilib. Məscidin həyəti çox böyükdür. 30.000 kvadrat metrlik ərazisində bir dəfəyə 80.000 adam namaz qıla bilir. Məscid 7 ilə tikilib. Tikintidə 11 min işçi çalışıb. Məscidin yuxarısı-tavanı hava və işıq gəlməsi üçün açıqdır. İstənilən anda düyməni basmaqla şüşəli tavan örtülür. Döşəmə başdan-başa xalılarla örtülüdür. Xalçalar qadın əməyidir. Qadının yaratdığı bu gözəllik onun iç dünyasını, üzünü əks etdirir. Xalça qadının siması sayıldığından hörmət əlaməti olaraq ayaqqabı soyunularaq içəri keçilir. Xalçadakı bütün rənglər təbii üsulla alınmış rənglərdir. Döşəmə sidr ağacındandır. Ətrafdakı qapılar, pəncərələr də həmçinin. Tavandan asılmış lampalar İtaliyanın Murano şəhərindən sifariş veriləcək gətirilib. Azan veriləndə içəridə quraşdırılmış fontanlar işləməyə başlayır. Fontanlar lotos gülü formasındadır ki, bu da paklıq rəmzidir. V Məhəmməd məscidi dünyada böyüklüyünə görə 3-cü yerdədir, sahəsi 9 hektardır.

Kasablankada 6 kilsə, 3 sinaqoq yerləşir. Şəhər turizmdən asılı deyil.

Şəhərin ümumi sahəsi 375 kvadrat kilometrdir. Əhalisi 5 milyondur. 1756-cı ildə böyük tələfat törədən zəlzələ olub, köhnə tikililər məhv olub. Şəhər demək olar ki, yenidən tikilib. Müasir Kasablankanın binalarının əksəriyyəti fransız stilindədir. Burada dövlət dili ərəb dili ilə yanaşı, həm də fransız dilidir. 5 rəqəm bütün ərəb-müsəlman dünyasında çox müqəddəs rəqəmdir. İslamın rəmzidir. 5 rəqəmi- həm də 5 ulduz İspan-Mərakeş dostluğunun simvoludur. Kasablankada tolerantlıq çox güclüdür. Sinaqoqlar, kilsələr heç bir maneə olmadan fəaliyyət göstərir. Kasablankada olarkən zeytun bazarına getdik. Bazarda turşuya qoyulmuş müxtəlif çeşidli, müxtəlif böyüklükdə zeytunların dadına baxdıq. Elə iri zeytunlar var idi ki, onları yalnız orada gördüm. Kasablankalılar qəlbi geniş insanlardır. Hər gələn turist bir zeytun yesə, onların qazancı nə olardı, bilmədim. Kasablanka turist şəhəridir və turistlərin sayı - hesabı yoxdur. Gidimizin dediyinə görə bu bazarın 100-dən çox yaşı var.

Oradan qədim bir saraya getdik. "Siti hol" adlanan bu saray paşaya aid mülkiyyət olub. İndi muzey kimi fəaliyyət göstərir. Müsəlman- islam mədəniyyətinin bariz nümunəsi olan saray memarlıq cəhətdən çox zəngindir. Sarayın çox böyük zalı var. 7 böyük şəhər zallarından biri burada yerləşir.

İslam mədəniyyətinə xas olan mavi mərmərlə bəzədilmiş divarlar mozaiklarla işlənmişdir. Mozaikalar arasında taxta şəbəkələr saraya xüsusi bir gözəllik verir. Burada boz mərmərədən də istifadə edilib. Boz mərmər səhralıqdan qazılan ən yaxşı material nümunəsidir. Boz mərmər bu ölkədə çox qiymətlidir. Bu onların milli sərvəti hesab olunur. Şəhərin çox binalarında, tikililərində boz mərmərdən istifadə edilir. Boz mərmərin şöhrəti hər yana yayılıb. İspaniyada da tikintidə boz mərmərdən istifadə edilir. İspaniyanın cənub şəhərləri ilə Kasablanka boz mərmərdən istifadə etdiyindən onları fərqləndirmək çətindir. Mərakeşin boz mərmərini başqa ölkə mərmərlərindən fərqləndirmək üçün xüsusi laboratoriya möhürü vurulur. Əgər mərmərdə möhür yoxdursa, o keyfiyyətsiz sayılır. Saraylardakı naxışlı taxtalar sidr ağacından hazırlanır. Onun xüsusi bir qoxusu var. Saray boz və mavi mərmər, yaşıl rəng və palıd rəngli sidr ağacından inşa edildiyindən göz oxşayan bir harmoniya təşkil edir. Yaşıl rənglə sarayın tavanı rənglənib. Sidr ağacından gələn qoxu havanı az da olsa kəsifləşdirir. Bələdçimizin dediyinə görə şəhərin şəhər adlanması üçün hər məhlədə 5 əsas element olmalıdır: çörəkxana, mədrəsə, hamam, məscid və bazar. Kasablankanın köhnə hissəsində o elementlər var və tarixi də qədimdir. Köhnə məscidlər tikilən vaxtı məsciddə 3 elementi də həkk edirdilər: su, alov, yapışqan. Bunların da mənası heyvan, şeytan və insandır.

Mərakeşlilərin idmana marağı böyükdür. Qolf meydançaları çoxdur, at yarışları keçirilir. Ancaq onlar bu idman növlərinə o qədər də həvəs göstərmirlər. Onların ən çox sevdiyi idman növü futboldur. Özlərində futbol olmasa da oynamaq üçün Avropaya gedir və avropalıların futbol komandalarının tərkibində oynayırlar.

Ərəb dili ilə yanaşı ofislərdə, idarələrdə fransız və bərbər dili də işlənir. 1900-cu ildən bu yana avropalılar buradan köçüb getməyə başlayıblar.

Kasablanka-Rabat arası məsafə 70 kilometrdir.

*(Davamı 3-cü səhifədə)*

# TANCER ŞƏHƏRİ

*(Əvvəli 2-ci səhifədə)*

Tancer şəhəri və portu Cəbəllütariq körfəzi sahilində yerləşir. Port Atlantik okeanına aid olub bir neçə kilometrlik məsafədədir. Tancer əlverişli yerdə yerləşdiyindən həmişə yaxın ölkələrin marağında olub. Ərəb dövlətləri, Türkiyə, İspaniya, Portuqaliya və İngiltərə kimi dövlətlər tərəfindən müxtəlif vaxtlarda 5 əsr işğal altında olub. Şəhərin mərkəzi iki yerli -Petit-Soko və Qrand Soko bazarı ilə məşhurdur. Bu bazarlarda çox sayda dükanlar, kafelər və qədim otellər var.

Tancerin əsasını e.ə. II minillikdə finikiyalılar qoymuşlar. Şəhərin 3 min il yaşı var. Cəbəllütariq körfəzinin bir tərəfi Mərakeş krallığının torpaqları, digər tərəfi isə Avropa torpaqlarıdır. Körfəzin bir hissəsi Aralıq dənizinin Atlantik okeanına töküldüyü nöqtədir. Körfəz bitən kimi Tancer şəhəri başlayır. Atlantik okeanına baxanda Aralıq dənizinin sularının rənginə görə ayırmaq olur. Həm də dəniz suyunun okeanala qarışdığı yerdə su sərhəd şəklində uzanaraq sanki qaynayır-suyun üzərində tumurcuqlar görünür. Tancer portunun bu hissəsindən istiqaməti düz tutub o biri sahilə gəmi ilə üzəsi olsan düz Braziliya torpaqlarına gedib çıxarsan. Şəhərin Aralıq dənizi sahillərindən düz istiqamətdə 14 kilometrlik uzaqlıqda İspaniya sərhədləri, dağları görünür. Şəhəri Qərb tərəfdən Atlantik okeanının suları yuyur. Şəhər qədim və müasir şəhərə bölünüb. Bələdçi olmadan şəhərin dolambac küçələrindən baş açmaq olmaz. Tancer 44 il Fransanın əsarəti altında olub (1912-1956). Tancer Beynəlxalq statuslu şəhərdir. Bələdçimiz milliyyətcə rabatlı ərəb idi, adı Əbdurrəhman idi. Rusca yaxşı danışırdı. Təhsilini Belarusiyanın paytaxtı Minsk şəhərində almışdır. Onun dediyinə görə ölkə əhalisinin 99%-i müsəlman, qalanı yəhudi və qismən avropalılardır. Tanjerin bir milyon əhalisi var. Ölkə turizmin hesabına və kənd təsərrüfatı məhsullarının ixracatı ilə işsizliyi aradan qaldırıb. Ölkədə yalnız 16 % işsiz var. Tancerdə orta ayıq əmək haqqı 500-600 avrodur. Bununla tanjerli normal yaşaya bilir. Kasablanka şəhərində əhali 1500 avro alır. Bu da onlar üçün normal maaşdır. Tancerdə məşhur Kaliforniya küçəsi var. Bu küçədə vaxtı ilə amerikalılar, ingilislər yaşayıb. II Dünya müharibəsində Normandiyaya hücum planı burada hazırlanıb. Tancerli ailədə 2-8 uşaq olar. Kənd yerlərində bu rəqəm daha yüksəkdir.

Səudiyyə Ərəbistan Respublikasının 32 yaşlı Şahzadəsi bu küçədə özünə torpaq alıb. Onun böyük villası, həyətyanı sahəsi sahil boyu uzanır. Küçə və şahzadənin yaşadığı imarət başdan-başa yaşıllıqlar içindədir. Bura bir kurort şəhərciyini xatırladır - hər yan meşəlik, gül-çiçək, təmiz. Ərəb şeyxinin qoyduğu sərmayəyə görə şəhər əhalisi yaxşı yaşayır. Tancerin dövlət dili ərəb dili olsa da, ikinci dili fransız dilidir. Ölkənin, eləcə də Tancerin nefti, qazı yoxdur. Faydalı qazıntısı dünyada birinci yerdə olan fosfata görə ölkə əlavə gəlir əldə edir. Fosfat kənd təsərrüfatında işlədilir və bunun sayəsində yüksək məhsuldarlıq əldə edilir. Qumdan alınan fosfot və uran hesabına hələ bundan belə 300-400 il yaşaya biləcəklər. Ölkə günəşdən foto-effekt yolu ilə enerji alınmasına görə Afrikada birinci yerdədir.

Tancerin yaxınlığında yerləşən mənzərəli Kasba qəsəbəsindən 70 kilometr məsafədə Tunis yerləşir.

Mərakeşdə bərbər xalqı çox qədimdən yaşayan xalqdır. Əzmkar xalq olaraq Roma imperiyasına qarşı döyüşmüşdür. Bərbərlər heç vaxt onlara ram olmayıblar, həmişə azadlıqda yaşamaq istəyiblər. Avropalılar bu inadkarlığına və döyüşkənliyinə görə onları varvarlar adlandırıblar. Onların indiki adları "inazigin" yəni, azad xalq deməkdir. Tancer vilayətinin rəhbəri bərbər olsa da, xalqı idarə edə bilib, xalq da onu sevib.

Tancerdə çox qədim yaşayış məskəni hesab edilən mağara var. Adam bura daxil olanda özünü qədim əcdadlarının yanında olduğunu düşünür. Elə bir hiss əmələ gəlir ki, sanki qədim insanların ruhu səninlə birlikdə bu mağaranı gəzir. Mağaranın uzunluğu 10 kilometrdir. Tancer-Tincis sözündən götürülüb. Tincis ingiliscə "qədim mələk" deməkdir. Yunan mifologiyasında Tincis Heraklın arvadıdır. Herakl Tincisin ərini öldürmüş və onu almışdır. Tincis ərəb dilindən tərcümədə Tanca deməkdir.

## *Mərakeş krallığına ümümi bir baxış*

## Əl-Məğrib-Mərakeş krallığı

Mərakeş krallığı (Marokko)Afrika qitəsinin Şimal-Qərbində yerləşir. Mərakeş - Əl-Məğrib, qərb, günəş girən yer deməkdir. Şimali Afrika - Məraşeç, Əlcəzair, Tunis kimi ölkələr Məğrib-Əl Asut adlanır. Mərakeş kimi tanıdığımız ölkənin adı həm də Marokkodur. Mərakeş isə onun bir şəhərinin adıdır. (Niderlandın da adına bəzən Hollandiya deyirlər. Bu adı hollandlar qəbul etmir və onlar bu sözü ifadə edən adama qəzəblənirlər, çünki Hollandiya Niderlandda ayrıca şəhər və quberniyadır.)

Ölkənin ərazilərini şimal-qərbdən Aralıq dənizinin, qərbdən Atlantik okeanının suları yuyur. Cənubi-qərb torpaqlarını Qərbi Böyük Səhranın qum təpələri "bəzəyir". Şimali-şərqdən Afrika qitəsinin sahəsinə görə ən böyük dövləti olan Əlcəzayirlə həmsərhəddir. Sahəsi 446,5 min kvadrat kilometr, əhalisinin sayı 2002-ci il hesablamalarına görə 30 milyondur. Paytaxtı Rabat şəhəridir, paytaxt əhalisinin sayı 1milyondan çoxdur. Dövlət dili ərəb, dövlət dini islam dinidir. Əhalinin 99%-i ərəblərdir. 1%-ni bərbərlər, ispanlar, fransızlar və yəhudilər təşkil edir. Dağlıq sahələrdə yaşayan bərbərlər öz dillərini qoruyub saxlaya biliblər. Bərbərlər əcdadları Liviyada yaşamış və Mərakeşə köç etmiş tayfalardır. Rabatda 450 nəfər yəhudi yaşayır. Şəhərdə onların ayrıca məhəllələri və məktəbləri var. Mərakeş yeganə ölkələrdəndir ki, orada erməni yoxdur. Hətta zarafatla deyirlər ki, ermənimiz yoxdur, əvəzində yəhudimiz var. Yəni, istənilən anda problem yarana bilər. Dəniz sahilləri ərazidə, vadilərdə əhali sıxlıq təşkil edir. Əhalinin 50%-dən çoxu kənd təsərrüfatı ilə məşğuldur. Ən böyük şəhərləri olan Kasablankada, Rabatda, Fesdə, Tanjerdə, Məknasda, Ücdə yaşayan əhali ümumi əhalinin təqribən 50 %-ni təşkil edir. Ölkə əsasən dağlıq ölkədir. Ölkə ərazisində yerləşən Atlas dağı əhalinin qürur mənbəyidir. Hər yerdə bu dağın adına rast gəlmək olur. İstər avtomobillərin üstündə, istərsə dükanlarda, plakatlarda, elanlarda, istərsə də içməli su doldurulmuş qablarda - hər yerdə Atlas dağının adını yazırlar. Hündürlüyü 4165 metrə çatan Tubkal dağı, Yüksək Atlas və Orta Atlas silsilələri Mərakeşin ərazisindədir. Ən qiymətli sərvətləri fosfatdı. Dünyada fosfat faydalı qazıntısı ilə məşhurlaşıb. Dünya fosfat ehtiyatının 75%-i Mərakeşdədir. Mərakeş fosfat ixracına görə və sardina balığı istehsalına görə dünyada 1-ci yerdədir.

Krallıq konstitusiyalı monarxiyadır. Dövlət başçısı və ali baş komandan kraldır. Krallıq irsidir, nəsildənnəslə keçir. İndiki kralın şəcərəsi 788-ci ildə ilk dövlət - İdrisilər dövlətini yaratmış İdrisin adı ilə bağlıdır.

Ölkə istiqlaliyyət qazandıqdan sonra (1956) burada dünyəvi məktəblər açılmış, savadsızlıq ləğv edilmiş, milli kadrlar hazırlanmağa başlanmışdır. Afrika qitəsinin ən qədim universiteti Karauin 859-cu ildə Fes şəhərində açılmışdır.

Ədəbiyyatı ərəb, bərbər, fransız dillərində yaranmışdır. Məşhur dəniz səyyahı İbn Bəttuta da daxil olmaqla bir sıra yazarlar səyahət etdikləri ölkələr haqqında əsərlər yazmışdır.

Bütün şərq ölkələrində olduğu kimi Mərakeşin qədim şəhərlərində də qədim və müasir hissələrə ayrılan yaşayış məhəllələri var. Mərakeşlilər qədim tikililər olan hissəsini köhnə "Mədinə"-içqala, içərişəhər, şəhərin özünü isə "Mədinə" adlandırırlar. Şəhər günü-gündən inkişaf edərək böyüyür və gözəlləşir. Səfirliklərin yerləşdiyi küçədən (şəhərin yuxarı hissəsində yerləşir, şəhər terras şəklindədir) aşağıdakı çöllükdə 6 milyardlıq tikinti (2015) başlanılıb. Burda "Pejo" maşını istehsal edən zavod tikilir. Yeni-yeni iş yerləri açılır. Zavodda 3 min adamın işləyəcəyi nəzərdə tutulub. İstehsal olunacaq maşınlar elektriklə işləyəcəkdir.

İndi hakimiyyətdə olan kral VI Məhəmmədin nəsli VIII əsrdən hakimiyyətdədir. İdrisidi nəslindəndir. İdrisidi sülaləsi XII əsrdən krallıq taxtındadır. Ölkədə indiyə qədər 24 kral olub. Kralın neçə arvadı, neçə oğlu olsa belə birinci doğulmuş oğlu tac-taxtın varisi odur, ölkəni o idarə edir. Kral VI Məhəmmədin Həsən adlı bir oğlu, Xədicə adlı bir qızı var. Atası II Həsən 1961-1999-cu ildə hakimiyyətdə olub, 28 il krallıq edib.

Kral VI Məhəmmədin yalnız bir arvadı var. Kral özü Avropaya meyllidir. Azad düşüncəlidir. Qadınlar başqa ərəb dövlətlərindən fərqli olaraq baş örtüyündən azaddırlar. Baş örtənlər, çadra geyənlər rəngli parçalardan istifadə edirlər. Örtük qadınların öz istəyindən asılıdır. Zor tətbiq edilmir. Mərakeş, belə götürsək, dünyəvi ölkədir. Qadınlar ölkənin hər işində fəal iştirak edir. Ümumi çimərliklərdə üzə və istirahət edə bilirlər. Krallığın bayrağının rəngi qırmızıdır. Ortasında beşguşəli ulduz var. Qırmızı rəng xalqın əsarətdən azad olmasını, beşguşəli ulduz isə islamın beş rəmzinin mənasını göstərir. 5 sütun isə - şəhadət, namaz, oruc, həcc, zəkat deməkdir. Məscidlərdə imamlar - insanları namaza aparanlar daim fəaliyyətdədirlər.

Mərakeşdə uşaqlar evlənərkən oğlan övladı qız övladından ikiqat artıq pay alır. Ailədə ər ikinci dəfə arvad almaq istəsə gərək birinci arvaddan icazə alsın. Əgər birinci arvad icazə versə, onda ər qayda-qanunla evlənir. Əgər arvadından gizli sevgili saxlayarsa qanuna görə, arvad onu məhkəməyə verər, kişi buna görə həbs olunar. Əgər arvadın gizli sevdası varsa, ər onu öldürər və 3-4 il həbs cəzasından sonra çıxa bilər.

Əhalinin 40% kənddə yaşayır. Kənddə oğlanı ata-anası gözaltı elədiyi qızla evləndirir. Adətən indiki bütün gənclər kimi mərakeşlilər da özlərinə karyera qurandan sonra evlənmək istəyirlər. Oğlanlar 30, qzlar isə 28 yaşında ailə qurur.

Fes şəhəri ölkənin dini paytaxtıdır. Fesdə yerləşən ən qədim Kayravan universitetini Fatimə Əl-Fəxriyyə adlı bir qadın 959-cu ildə öz vəsaiti hesabına inşa etdirib. IX əsrdə tikilmiş bu universitet Afrika qitəsinin ən böyük universitetidir.

Camel"-dəvə, "sahibi dost"- sahib çıxmaq, yiyə kimi sözlər bizə tanışdır. Ərəb dilini öyrənmək o qədər də çətin deyil. Çünki bu sözlər bizdə də işlənir.

Ölkədə Arqan deyilən bir ağac var, o da ancaq Atlas dağlarında bitir. Onun yağından kosmetikada istifadə edirlər. Əsasən qırışlara qarşı effektlidir. Bundan əlavə oynaq ağrılarına ondan düzəldilmiş kremlər, yağlar çox kömək edir. İsveçrədən bir nəfər təbib bu dağlara qonaq gəlir. Yaşlı qadınlara baxanda görür ki, onların əli cavan qız əli kimi qırışsız və şümaldır. Bunun səbəbini sonra başa düşür. Qadınlar, qızlar Arqan meyvəsini yığır, qədim əzici alət olan kirkirə alətilə əzir, tumunu çıxarır, yağını süzürlər. Qadınların əlləri həmişə yağ içində olduğundan dəriləri qırışmır. Bundan yararlanan isveçrəli təbib bu ağac haqqında hökumət başçısına məlumat verir, Arqan yağının faydalarından danışır və idxalına nail olur. O vaxtdan Arqan yağı kosmetikada bel və diz ağrılarında yaxşı müalicə üsulu kimi şöhrət tapır.

Bütün mərakeşlilərin qürur mənbəyi olan Atlas dağı port şəhəri olan Tanjerdən görünür. Onun ən yüksək zirvəsi 4169 metrdir. Ölkədə 45 dərəcə isti olduğu halda Atlas dağında hətta qar olur.

Onlarda ağzı geniş vazaya oxşar qapaqlı gözəl qablar var. Ta qədimdən bu qabdan toyda nəmər qoymaq üçün işlədirmişlər. Tarixi bir əşya kimi bu qabları hər yerdə görmək mümkündür.

***(Davamı 6-cı səhifədə)***

# TANCER ŞƏHƏRİ

*(Əvvəli 3-cü səhifədə)*

Kadr ağacı yeganə ağacdır ki, Mərakeşdə və Sibirdə bitir. Cənub-şərqi Mərakeşdə onun oduncağından mebel hazırlayırlar.

Kasablankadan Rabata gedən yolun üstündə qəribə bir səhnənin şahidi olduq: yol kənarında bitən ağacların üstü keçilərlə dolu idi. Quraqlıq olduğundan kifayət qədər qidalanmayan keçi sürüləri ağaclara dırmaşıb ağacın yarpaqlarını yeyirdilər, heç kim də buna irad tutmurdu.

Bildiyimiz kimi Mərakeş Atlantik okeanının sahili boyu yerləşsə də cənubdan Qərbi Böyük Səhra ilə həmsərhəddir. Quraqlıq şəraiti oradan yaranır. Bir tərəfi yaşıllıq olsa da, bir tərəfi susuzluqdan əziyyət çəkir. Ümimilikdə götürdükdə Mərakeş dağlıq ölkədir.

Rabat - Mərakeş krallığının paytaxt şəhəridir. 2000-ci il hesablamalarına görə əhali 658 min nəfərdir. Kasablanka ilə Rabatın arası avtomobillə 1 saat 15 dəqiqəlik yoldur. Kasablankadan Rabata gedən yolda uzaqdan meşəlik görünür. Meşələrdə şir, bəbir, meymun, ceyran, kaftar kimi heyvanlar yaşayır. Yayda dəniz kənarında temperatur 32 dərəcə, şəhərin içərisində 42 dərəcə isti olur. Ən aşağı istilik dərəcəsi 10-12 dərəcədir. Yağış az da olsa yağır. Rabat da başqa şəhərlər kimi qədim və müasir şəhərə bölünüb. Yeni şəhər tikinti meydançasını xatırladır. Şəhərdə yeni binalar tikildikcə, böyüdükcə şəhər daha da gözəlləşir. Şəhərin yüksək hissəsində xarici səfirliklər yerləşir. Binalar yaşıllıqlar içərisində görünməz olub. Yuxarıdan aşağı baxanda Atlantik okeanının suları görünür. Ölkədə çimərlik pulsuzdur. Uşaqların orta məktəbdə oxuması məcburidir. 6 yaşından 16 yaşına qədər orta məktəbdə oxuyurlar. Universitetə qəbul olunanlar pul ödəmədən təhsil alırlar. Dövlət təhsilə çox fikir verir. Və hər bir vətəndaşın savadlı olmasına diqqət yetirir. Ölkədə universitetlər pulsuz olduğundan Afrika və Avropa ölkələrindən bura təhsil almağa gəlirlər.

Əhali krallarını sevir. Maaşları yüksəkdir. Həm də ərzaq ucuz olduğundan aldıqları maaş kifayət edir. Dövlət idarələrində işləyənlər 500-800 avro alır. Nazirlər 5 il işləyir, ayda 6 min avro alır, təqaüdə çıxanda 3000 avro əməkli təqaüdü alır. Səhiyyə pulsuzdur. Gəliri ən çox kənd təsərrüfatı, turizm və fosfatdan götürürlər. Təzəlikcə okeanda neft tapıblar, çıxarmağa tələsmirlər. Kənd təsərrüfatında daxili sulardan istifadə edirlər. Ölkə ərazisi isti olduğundan dambalar qurublar. Belə dambaların sayı 99-dur. Rabata gedən yolda ağaclar olsa da bəziləri susuzluqdan quruduğunu görmək olur. Susuzluqdan əkilmiş tumlar əkin sahəsində barı üstündəcə yanıb məhv olur.

Müsəlman ölkələrində istirahət günləri IV-V günlər olduğu halda Mərakeşdə şənbə və bazar istirahət günüdür.

Mərakeş vaxtilə imperiya olub. İlk paytaxtı Fes şəhəri olub. Onun yaşı 3 min il hesab edilir. Sonra Rabat, Mərakeş şəhərləri salınıb. Paytaxt Rabat ticarət şəhəridir. Küçələri başdan-başa bayraqlarla bəzənib, uzaqdan lalələrə bənzəyir. 30 iyul kralın taxta çıxdığı gün olduğundan hələ də yığışdırılmamışdı. Şəhərdən axan çay Sale şəhərini Rabatdan ayırır. Sale şəhəri Rabatın oxşar əkizidir. Yaşıllıqlar içində salınıb. Əhalinin əksəriyyəti orada yaşayır və işləmək üçün Rabata gəlir. Mərakeş şəhərini yaşıllıqlar, bağlar şəhəri adlandırırlar. Yolboyu qəbirstanlığa da rast gəlirdik. Yəhudi qəbirləri ilə xristian qəbirləri bir yerdədir.

Rabat şəhəti üç yerə bölünüb - məmurlar yaşayan hissə, səfirliklərin yerləşdiyi ərazi və kralın iqamətgahı olan hissə.

Kralın iqamətgahına doğru yol alırıq. Yollarda səliqə ilə ağaclar əkilib. Agaclar "Bencamin fikusu" adlanır. Həmişəyaşıldır. Ağacların arası təxminən 10 metr olsa da, yuxarı hissəsini elə budayıb şaxələndiriblər ki, bir-biri ilə birləşib. Budaqlar sanki bir ağacın gövdəsindən pərvəriş tapıb boy atıblar.

Qarşıda XII əsrdən qalma divar görünür. Divarlarda bir-birindən aralı deşiklər var. Bu deşiklər divarların havalanması üçündür. İqamətgahın birinci həyəti turistlərə açıqdır. İkinci divardan o yana kralın iqamətgahı olan həyət yerləşir. Giriş qapısında əlisilahlı əsgərlər dayanıb. Yolun o biri üzünə keçmək yasaqdır. Kralın iqamətgahına təxminən 100 metrlik məsafədən baxmaq olar. Hündür divarlardan içərini görmək onsuz da mümkün deyil. Birinci həyət başdan-başa yaşıllıqlar içindədir. Şəhərdə, yollarda susuzluq hiss edilsə də iqamətgahın birinci həyətində bunu görmək qeyri-mümükündür. Bələdçimiz bunu da bizə anladır. Deməli, bu sahənin yaşıl qalması üçün gecələr bura damcı üsulu ilə sulanır. Və... gündüzlər ağaclar və otlar yanmasın deyə yerin altında quraşdırılmış kondisionerlər yaşıllığı günəşin yandırıcı şüalarından qoruyur!..

Kral Sarayını içəridən və kənardan polislər nəzarət edir. Şəhərdən kənarda isə hər şey jandarmların nəzarəti altındadır. Sarayın qarşısında növbə çəkən qvardiya əsgərləri iki saatdan bir dəyişilir.

Kral iş gününü sonyunda öz şəxsi villasına gedir. O da kral iqamətgahında deyil, şəxsi evində yaşamağı üstün tutur.

Mərakeşin Müdafiə Nazirliyi kral iqamətgahında yerləşir. Nazirliyin binaları şərq ölkələrinə məxsus olan ağ , yaşıl, qəhvəyi rənglə bəzədilib. Köhnə tikililərin qapı və pəncərələri göy rəngdədir. Əqrəblər, müxtəlif həşəratlar göy rəngdən qorxduğu üçün qapı və pəncərələri bu rəngdə rəngləyirlər.

### Kral V Məhəmmədin məqbərəsi

Məqbərə başdan-başa mərmərlə tikilib. Mərmərin üstündə naxışlar çəkiblər. Mərmər üzərində işləyərkən səhv etmək olmaz. Səhv çəkilmiş naxışlı mərməri işlətmək qeyri-mümkündür. Onu atırlar, itkiyə gedir. Bunun üçün onu işlədən usta məsuliyyət daşıyır.

Məqbərənin giriş qapısında ərəb atı üstündə oturub onu mühafizə edən iki atlı dayanıb. Onlar da müxtəlif saatlarda növbəni başqasına verir. Ərəb atları bizim atlardan fərqlidir. Çox hündür, güclü və rəngi boza çalan atlardır. Bələdçimizin verdiyi məlumata görə bu cür atlar ərəb atları ilə bərbərlərin əhliləşdirib saxladıqları atların cütləşməsindən yaranıb.

XII əsrdə kral məqbərənin qabağında böyük məscid tikdirmək istəyir. Geniş sahəni əhatə edən tikiləcək məscidin özülünü qoymuş, sütunlarını ucaltmış kral xəstələnib vəfat edir. Onun bu işi yarımçıq qalır. Heç kim məscidin tikintisini davam etdirmir. İndiki halında həyət tərtəmizdir. Sütunlar gələn qonaqların şəkil çəkdirməsinə xidmət edir. Cavanlar sütunların üstünə çıxaraq şəkil çəkdirirlər.

"Qəsba"- köhnə şəhər YUNESKO-nun siyahısına düşüb. Əndəlüs (vaxtilə ərəblərin işğalı altında olan İspaniya şəhəri) tipli bağçaları, parkları var. Bura VIII əsrdə Əndəlüs adlanırdı.

ABŞ-ın müstəqilliyini ilk dəfə tanıyan Mərakeş krallığı olub.

### Mərakeş xalqının folkloru və incəsənəti

Mərakeş xalqı öz əl işləri ilə dünyada məşhurdurlar. Onların əldə toxunma xalçaları, keramikadan, bürüncdən hazırladıqları müxtəlif suvenirlər, toxunma səbət, həsir, zənbil turistlərin maraqla seyr etdikləri və hədiyyə kimi aldıqları əşyalardır. Təmiz dəridən üst geymləri də turistlərin həvəslə aldıqları mallardandır.

Mərakeş xalqının folklorunu əsasən Atlas dağlarının ətrafında və Sus şəhərində yaşayan əhali tərəfindən yaradılıb. Müasir musiqi orkestr tərəfindən çalınsa da, folklor musiqisi yalnız "darbuka" adlanan-ənənəvi milli nağara və rübabda ifa edilir. Bu dəstədə çalışan insanlar böyük şövq və məhəbbətlə öz milli musiqilərini ifa edirlər. əsas repertuarları qədim musiqilərdir.

Dükanlarda Mərakeşin simasını əks etdirən müxtəlif ölçülərdə olan xalçalar, gümüşdən və dəmirdən olan bəzək əşyaları, hörmələr və əsasən də təbii dəridən hazırlanmış gödəkcələr, çantalar öz müştərilərini gözləyir. Şərq bazarlarına xas satıcıların müştəri səsləməsi, hay-küylü, dolanbac, dar küçələri turistlərin marağına səbəbə olur.

Mərakeş müasir ölkə olmağına baxmayaraq qədim adət-ənənəsini, tarixi musiqisini qoruyub saxlaya bilmişdir. Bir neçə adda milli yeməkləri var. Onlardan biri budayi adlanır. Bu pomidor və kraxmal əlavə edilmiş sulu xörəkdir. Başqa milli yeməkləri dana ətinə gavalı, küncüt qatılmış-tajindir. Feduah-nazik kəsilmiş, parda hazırlanmış, yağ hopdurulmuş və küncüt qatılmış yeməkdir. Bütün mətbəxlərdə badamdan, küncütdən, finiki meyvələrindən, portağal və naringidən geniş istifadə edirlər.

Şirniyyatlardan badam səpilmiş, "gəlin barmaqları", Kaab Ghzal-ceyran yanaqları, yenə də üstünə badam səpilmiş ay formasında bişirilmiş pirojnalar çox dadlıdır. Spirtli içkilərdən ən bahalı fransız, italyan, ispan şərabları ilə bərabər yerli və dadı onlardan heç də geri qalmayan şərablar dükanlarda sərbəst surətdə satılır. Burada mərakeşlilərə xas nanə çayı tez-tez turistlərə və şəhərin qonaqlarına təklif olunur. Yanında da mütləq dadlı şirniyyatlar.

Məhəmmədiyyə və Rabat

Kasablankanın 25 kilometrliyində Məhəmmədiyyə şəhəri yerləşir. Şəhər öz çimərliyi ilə turistləri özünə cəlb edə bilib. Gözəl çimərlikləri, otelləri, restoranları ilə bərabər dənizdən təzə-təzə tutulub bişirilən balıq və dəniz məhsulları bu ölkəyə turist axınının başlıca şərtlərindən biridir. Şəhərdə qolf, ippodrom, kazino və ticarət mərkəzi mövcuddur. Bu da turistlərin gəlib öz istirahətlərini səmərəli keçirmələrinə təminat yaradır. Bu şəhərin də öz "mədinəsi"-qədim hissəsi var. İç divarları bu şəhərin qədimliyinə dəlalət edir.

Rabat Marokko krallığının paytaxtı və ölkənin mərkəzidir. Şəhər Bu-Peqreq çayının üstündə, Kasablankanın 70 kilometrliyində yerləşib. II Həsən məscidinin qülləsindən ətrafa baxanda göz işlədikcə görünən Rabat, Bu-Peqreq çayının vadisi, Sale, Çella kimi qədim tikililər görsənir. Rabat özlüyündə iki hissəyə bölünüb - aktiv həyata bölünən və nəqqaşların əlilə bəzədilmiş qədim şəhər. Rabatın ən hörmətli və turistlərə böyük həvəslə göstərdikləri muzeylərdən biri V Məhəmmədin məqbərəsidir. II Həsən məscidinin yaxınlığında yerləşən məqbərə çox böyük zövqlə tikilmiş və bəzədilmişdir. V Məhəmmədin nəşi qoyulmuş məqbərə çox böyük bir zaldan ibarətdir. Zirzəmizala girmək turistlərə yasaqdır. Ortada qoyulmuş tabutun yerləşdiyi zalın yuxarısında imam oturub. İmam gecə-gündüz orada oturararq "Quran" oxuyur. Ziyarətə gələnlər V Məhəmmədin qəbrini ancaq yuxarıda tikilmiş dördkünc eyvandan seyr edə bilər. Məqbərə divarları bəzəklərlə işlənmiş mərmərdən, günbəzdən, kedr ağacından tikilmiş iri salondan ibarətdir. Divarlar qızılı rənglə rənglənib. Rabatın yerləşdiyi ərazidə onu dünyada tanıdan qızıl qumlu çimərlikləri öz cazibəsi ilə turistləri cəlb edir.

***(Davamı var)***

**Redaksiyadan:** *Qəzetimizin 02 may 2025-ci il tarixli 15-ci sayında Salatın Əhmədlinin "Əl-Məğrib - Mərakeş krallığı" başlıqlı yazı dərc olunub. Təəssüf ki, redaksiya işçilərinin diqqətsizliyindən səhifəyə redaktə olunmamış variant verilib.*

*Müəllifdən və oxuculardan üzr istəyirik.*